**UOT: 338.1; 330.34/.35; 338.26/.27; 338.12;330.34; 330.35;**

*Vüqar Avtandil oğlu BAYRAMOV*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA İqtisadiyyat İnstitutu*

# İQTİSADİ İNKİŞAFIN SOSİAL PROYEKSİYASI: KOMPLEKS TƏHLİL

*Xülasə*

**Tədqiqatın məqsədi -** təqdim edilmiş məqalədə sosial-müdafiə sisteminin əsas komponentləri təhlil edilmiş və bu komponentlərin iqtisadi inkişafa təsir mexanizmi araşdırılmışdır.

**Tədqiqatın metodologiyası** - tədqiqat işində məntiqi ümumiləşdirmə, riyazi-statistik, müqayisəli təhlil, sistemli yanaşma, analiz, sintez üsul və metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Azərbaycan Respublikasında iqtisadiyyatın prioritet istiqamətləri sosio-iqtisadi komponentlərin təkmilləşdirilməsidir. Bu istiqamətdə dövlət tərəfindən görülən işlər – sosio-iqtisadi inkişafın iqtisadi dayanıqlılıqda əhəmiyyəti olduqca böyükdür.

**Tədqiqatın nəticələri** - sosio-iqtisadi sferada sosial komponentlə bağlı model identifikasiyası və Azərbaycanda sosial müdafiə sisteminin əsas komponentlərinin strukturu verilmişdir. Bununla yanaşı sosio-iqtisadi inkişafın dayanıqlılığında nəzəri-konseptual konstruksiyasının anatomik təsviri və sosial siyasət modellərinin təsnifatı əks etdirilmişdir.

**Tədqiqatın elmi yeniliyi** - iqtisadiyyatın ayrı-ayrı sahələrinin məşğulluqda və Ümumi daxili məhsulda (ÜDM) payı, əmək bazarının inkişaf dinamikası, təhsil səviyyəsi üzrə Azərbaycanda əmək bazarının mövcud vəziyyəti, əməkhaqqının ÜDM-də xüsusi çəkisi, orta, minimum əmək haqları və yaşayış minimumu arasındakı bağlılıq, sosialyönümlü xərclərin həcmi və dövlət büdcəsi xərclərində xüsusi çəkisinin dinamikası, elmi-tədqiqat və işləmələr xərclərinin sektorlar üzrə bölgüsü, əlverişsiz əmək şəraitində işləyənlərin sayı, əhalinin maddi təminatını əks etdirən göstəricilərin dinamikası, təyin olunmuş orta aylıq pensiyaların orta aylıq əməkhaqqında payı və pensiyaçılarla əlaqədar göstəricilərin dinamikası əks olunmuşdur və bu komponentlərin iqtisadi inkişafa və dayanıqlılığa təsirlərinə də baxılmışdır.

***Açar sözlər: sosial-müdafiə sistemi, yaşayış minimumu, sosialyönümlü xərclər, maddi təminat, dayanıqlılıq.***

## *Giriş*

Müasir dövr qloballaşma prosesi postmodern dəyərlər bazasında dərinləşdikcə, cəmiyyətin dayanıqlı inkişaf kontekstində çoxsaylı, yeni məzmunlu fəsadlı situasiyaların ortaya çıxması sosial komponentin bütün təfərrüatı ilə aktuallaşmasına gətirib çıxarmışdır. Belə bir şəraitdə sosial-iqtisadi münasibətlər sistemində rasionallıq və səmərəlilik kateqoriyaları ön plana çıxmaqla “yeniləşmə” prosesinə əvvəlki dövrlərdən mahiyyətcə fərqlənən yeni konseptual məzmunluluq əxz edir.

**Sosial siyasət modelləri və sosial komponentlə bağlı model identifikasiyası**

Qlobal situasiyanın keyfiyyətcə yeniləşdiyi bir zaman kəsiyində həm bütövlükdə sosial sferanın, həm də sosio-iqtisadi anlamda dayanıqlı inkişaf trayektoriyasına çıxışın nəzəri konstruksiyasının qurulması çox müşkül məsələdir. Ən azı ona görə ki, “nəzəri çıxışla” “real çıxışın” adekvatlığı probleminin rasional kalkulyasiyasını aparmaq prinsipcə, mümkün deyildir. Nəzəri ümumiləşdirmə yalnız və yalnız o halda gerçəkliyə adekvat ola bilər ki, reallıqda baş verən hadisə və proseslərə istinad etsin. Belə ki, sosial sferanın yeni inkişaf trayektoriyasına çıxışı – bir tərəfdən, qlobal çağırış və təhdidlərin nəzərə alınmasını, digər tərəfdən həm sovet “keçmişindən”, həm də modernin “köhnəlmiş” dəyərlərinin bir çoxundan imtina edilməsini qaçılmazlıq halına gətirir.

Dövlət müstəqilliyi əldə edilən dövrdən bu günə qədər ölkədə həyata keçirilən sistemli islahatların mərkəzi komponenti sosial sfera olmuşdur. Qeyd edilən yönümdə həyata keçirilən fəaliyyətin əsas istiqaməti rifahın yüksəldilməsi, yoxsulluq və işsizliyin, sosial ədalətin qərarlaşması və s.

bazasında sosial həmrəylik → sosial əməkdaşlıq → sosial-mədəni identiklik üçlüyünün bərqərar olmasına nail olmaqdan ibarət olmuşdur. Bu yönümdə çoxsaylı qərarlar, Dövlət Proqramları və digər konseptual məzmunlu rəsmi sənədlər, normativ-hüquqi aktlar qəbul edilmişdir. Bununla belə, sadalananlar aspektindən bir sıra problemlərin mövcudluğu strateji anlamda bəzi çətinliklər yaratma imkanındadır. Bu paraqrafda bizim məqsədimiz bütövlükdə sosial sferanın problemlər kompleksini deyil, sosial sfera üzərində iqtisadi inkişafın proyeksiyasının (kəmiyyətcə ölçmə imkanı olan komponentləri) doğurduğu situasiyanı tədqiq etməkdir. Möhkəm inamımıza görə, məhz bu tərzli “əlahiddə”ləşmə yekun etibarı ilə sosial inkişafa və bütövlükdə inkişafın dayanıqlılığı dərəcəsinə birbaşa təsir göstərmək iqtidarındadır.

Dünyanın, ələlxüsus da inkişaf etmiş və postindustrial təsərrüfat tipinə keçmiş ölkələrin sosial sfera ilə bağlı strateji yanaşmalarının, həyata keçirdikləri sosial siyasət modellərinin müqayisəli təhlili göstərir ki, qeyd olunan sferanın tənzimlənməsi və inkişafına baxışda ifrat müxtəliflik mövcuddur. Və, bu da təbiidir! Sosial sfera – subyekt kimliyi dəqiq şəkildə ifadə olunmuş sferadır: yəni, araşdırılan məsələ konkret sosiuma, konkret millətə aid bir məsələdir. Buna görə də yanaşmalardakı polyarlıq birbaşa milli spesifika, inkişaf səviyyəsi, cəmiyyətin tipi və mental konsept dəyərləri ilə determinə olunur.

Uzun onilliklər ərzində sosial-sfera və iqtisadiyyat arasında (ikincinin prizmasından) formalaşan bağlılığın əsas nəzəri-funksional subyekti “iqtisadi-insan” olmuşdur. Sonrakı inkişaf prosesində “iqtisadi insan” abstraksiyasının fəaliyyət fəlsəfəsindəki “nöqsanları”, ziddiyyətliliyi və spontan qaydanın yetərsizliyi aşkar olundu (sözügedən “eqoist” liberal yanaşmada öz varlığını bu gün də saxlamaqdadır).

Ayrıca götürülmüş bir ölkədə inkişafın dayanaqlılığı problematikası prizmasından yanaşdıqda iqtisadi və sosial sferaları ayrı fəaliyyət sahələri kimi nəzərdən keçirmək reallığa adekvat olmayan bir yanaşma təsəvvürü yaradır. Müasir dövrdə, bu sferalar ayrı-ayrılıqda deyil, sosio-iqtisadi tipli üzvi bağlılıqda, vəhdətdə olan cütlük kimi qəbul edilməlidir.

Ümumiyyətlə, belə hesab edirik ki, məhz dayanıqlılıq fenomeni aspektindən nəinki iqtisadi və sosial sferalar, eləcə də ictimai həyatın bütün spektri qarşılıqlı bağlılıqda götürülməlidir: sosio-iqtisadi və sosio-mədəni sistemdə struktur bərabərliyi prinsipi hökm sürməkdədir. Digər bir mühüm nüans sözügedən bağlılığa iqtisadi “imperializm” prizmasından yanaşmanın yalnışlığıdır. Sosio-iqtisadi sfera – cəmiyyətin tipini müəyyənləşdirən 2 əsas altsistemlərdən biridir. Və, ümumiyyətlə iqtisadiyyat – tələbatlar prizmasından sosial sferanın təmərgüzləşmiş formasıdır.

Həm də,unutmaq olmaz ki, iqtisadi zaman – sosial zamanın konkret strukturlu modifikasiyasından qeyri bir anlam daşımır.

Bu anlamda, inkişaf prosesinin dayanıqlılığı – zaman axını boyunca formalaşan keyfiyyət halıdır. Yəni, dayanıqlılıq – bir zaman anlayışıdır. İqtisadi zaman – “yaradılan” zamandır və sosial zamanın – “davranış tərzi”ndən birbaşa asılılıqdadır. Ona görə də, sosio-iqtisadi sferada hədəflənən rasionallıq və səmərəliliyin qərarlaşması prosesinə, eləcə də bu sferada universallığın yoxluğunu şərtləndirən situasiyaya ən çox təsir göstərmək iqtidarında olan şey – dünya ölkələrinin müxtəlif sosial zamanlarda yaşamalarıdır. Yəni, cəmiyyətlərin tip müxtəlifliyi (ənənəvi, modern, postmodern), sosio-iqtisadi problematikaya, həmçinin makrososial sabitliyə münasibətdə fərqli konseptual məzmunluluq doğurur. Və, bu halda da milli spesifikanın ön plana çıxışı bir növ “təhrik” xarakteri daşıyır. Qeyd edilənlər prizmasından qiymətləndirmədə görünən odur ki, Azərbaycanda cəmiyyətin tipi sırf industrial səciyyə daşıyır. Lakin... bir tərəfdən, postindustrializmin ayrı-ayrı komponentləri tətbiq edilsə də, digət tərəfdən industrial təsərrüfat tipinin tam şəkildə qərarlaşması prosesi başa çatmamışdır.

Bu aspektin çox mühüm rolu vardır. Belə ki, industrial təsərrüfat tipinin əsas və son məqsədi milli rifahın dayanıqlı şəkildə fasiləsiz yüksəlişidir. Postindustrial təsərrüfat sistemində isə hədəf azadlıqdır. Doğrudur, azadlığın optimal şəkildə qərarlaşması, sosial inkişafın, sosial ədalətin gerçəkləşməsində, həmçinin real məzmun daşıyan rifahın yüksəlişində mühüm rol oynayır. Daha konkret ifadə: rifah – azadlığın (optimal) “törəməsidir”. Məhz buna görə də, postmodern modernlə

müqayisədə daha yüksək keyfiyyətli cəmiyyət tipi hesab olunur. Məsələnin nəzəri-fəlsəfi dərki ilə bağlı elə bir anlaşılmazlıq yoxdur. Amma... praqmatik müstəvidə seçim problemi aktuallaşır: 1)Rifahdan çıxış etdikdə – dövlət “baba”dır (hətta vətəndaş cəmiyyəti ilə birlikdə “hərəkət” etsə də) və sosial inkişafa nail olmaq onun əsas funksiyasıdır; 2)Azadlıqdan çıxış etdikdə: Hər bir fərd (vətəndaş) özü-özünü hərtərəfli inkişaf etdirməlidir. Dövlətin bu sferaya müdaxiləsi azadlıq konseptinə “zərər” gətirir. Bir sözlə, “suda boğulanların xilası onların öz əlindədir”.

**Azərbaycanda sosial müdafiə sistemi və komponentləri**

Görünən budur ki, Azərbaycan hər iki qütbün müəyyən (birindən az, birindən çox olmaqla) elementlərinin formalaşdırdığı simbioz formalı yanaşmaya istinad etməlidir. Qeyd etməyə ehtiyac yoxdur ki, sosial sferanın problemləri müzakirə mövzusudursa, birinci qütbün (industrial) seçilməsi yeniləşmə prosesini deformasiyaya uğrada, ikinci qütb (postindustrializm) isə sosio-iqtisadi anlamda sistem böhranı doğura bilər.

Bu seçimlə bağlı Azərbaycan gerçəkliyində hansısa bir formada anlaşılmazlıq mövcud deyildir. Belə ki, milli ideyanın mahiyyət özəlliklərinə tam şəkildə adekvat olan “Azərbaycan 2020: gələcəyə baxış” Konsepsiyası dövlətin rəsmi mövqeyini postindustrial cəmiyyət tipinə keçidi əsas məqsəd kimi ortalığa qoymuşdur.

Bu aspektdən, maraqlı məqam ondan ibarətdir ki,milli sosio-iqtisadi və sosio-mədəni “gələcəyə” doğru hərəkətin hədəflənmiş məqsədi, digərləri ilə bahəm, həm də ideoloji-siyasi məzmun daşıyır. Və, daşımalıdır da! Belə ki, sosial sfera – siyasi və ideoloji üstqurumun əsas bazasıdır... Dövlət müstəqilliyi əbədidir, toxunulmazdır. Lakin, onun funksiyaları yeniləşmə prosesinə adekvat şəkildə “yeniləşməlidir”. Hal-hazırda həyata keçirilən və dövlət idarəetməsinin əsaslarını özündə ehtiva edən islahatlar kompleksi gəldiyimiz qənaətin doğru olduğunu ortalığa qoymaqdadır. Funksional rakursdan yeniləşmə prosesində dövlətin statusu (“baba”) dəyişmir, lakin funksional sferada rifahın yüksəldilməsi prosesində azadlıq konseptinin optimallıq “sərhədlərinin” çəkilməsi nəzərdə tutulur. Əvvəldə qeyd etdiyimiz “simbioz”un mahiyyəti məhz bundan ibarətdir. Bütün bunlarla bahəm, apardığımız araşdırmalar bugünkü reallıqla əlaqədar Azərbaycanın sosial inkişafla bağlı tətbiq etdiyi konseptual yanaşma daha çox konservatizmə meyllidir. Bu konsepsiyanın əsas mahiyyəti ondan ibarətdir ki, sosial sferanın inkişafı, ümumiyyətlə, sosial siyasət - real inkişaf prosesindən “doğmalı”, onun (inkişafın) tamamlayıcısına, təminedicisinə çevrilməlidir. Yəni, Yaradan (sosium) yaradılanın (iqtisadiyyatın) xidmətçisi olmalıdır. Başqa sözlə, hamıya məlum olan iqtisadi “imperializm” mövqeyindən baxış öz aktuallığını saxlamaqdadır. Maraqlıdır ki, əsasən Almaniyaya (yaxud alman millətinə) xas olan yanaşma tərzi Türkiyədə də olduğu kimi tətbiq olunmaqdadır...

Təkcə bu fakt kifayətdir ki, sosio-iqtisadi sferaya milli spesifikanın aşırı təsir göstərdiyini görə biləsən.

Ölkədə sistem dəyişikliyinin ilk dövründə sosio-iqtisadi sferada xaotik, sistemdən kənar gedişlər üstünlük təşkil edirdi. Əhalini, keçid dövrünün yaratdığı problemli situasiyaların neqativ təsirindən qorumaq məqsədilə dövlət, minimal səviyyədə də olsa, müəyyən diqqət yetirməyə cəhd edirdi. (Dərin iqtisadi böhrana rəğmən). 2002-ci ildə müxtəlif yönümlü imtiyazlar müavinətlərlə əvəz olundu. Bu, bir ilk olaraq, sosial müdafiənin invanlılığının təminatında mühüm addım idi. Bu dövrdən başlayaraq, iqtisadi potensialın yüksələn şərtlə artımı və cəmiyyətin inkişafına yönəldilməsi sosial problemlərin həlli prosesinə bir artımın keyfiyyəti əxz etdi. İqtisadi artımın sosial effektivliyi problemi aktuallaşmağa başladı.

İlkin dövrlərdən etibarən ölkədə sosial mühafizə sisteminin formalaşdırılmasına başlanıldı. (şəkil 2)

Sosial sferada (transformasiya dövründə) yeniləşmə prosesinin ilkin ciddi addımları pensiya islahatları olmuşdur. Belə ki, Ulu öndər H.Əliyevin birbaşa rəhbərliyi altında “Vətəndaşların pensiya təminatı haqqında” (1997) Qanuna edilən əlavə və dəyişikliklər, “Azərbaycan Respublikasında pensiya islahatı konsepsiyası” (2001) qəbul edilmiş və pensiyaların ödənilməsi DSMF-yə həvalə olunmuşdur.




**Şəkil 1. Azərbaycanda sosial müdafiə sisteminin əsas komponentləri.**

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

Eyni zamanda, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, yoxsulluğun səviyyəsinin aşağı salınmasına yönəldilmiş "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın (2003) tətbiqi çox mühüm irəliləyişlərə yol açmışdır. "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" (2006) qəbul edilmiş qanunlar islahatlar kompleksinin effektivliyini hissedilətək dərəcədə yüksəltmişdir. Digər tərəfdən, məşğulluq probleminin davamlı həlli yönümündə qəbul edilmiş Məşğulluq Strategiyası (2006–2015) və buna uyğun olan Dövlət Proqramının (2007–2010) tətbiqi mühüm rol oynamışdır. Bu istiqamətdə ilkin olaraq 2003–2004-cü illər ərzində 177min yeni iş yeri açılmışdır. 2010-cu ilə qədər olan dövrdə yeni iş yerlərinin sayı 1mln.-u keçmişdir. Məşğulluq probleminin spesifik cəhətlərindən biri iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə bölgüsü və o sahələrin ÜDM-də payı aspektindən uyğunsuzluğun olmasıdır. Cədvəldəki dinamik sıradan göründüyü kimi, aqrar sferada məşğul əhalinin 36,3%-i çalışdığı halda, bu sferanın ÜDM-də xüsusi çəkisi cəmi 5,7% təşkil etmişdir.

Müqayisə üçün qeyd edək ki, 1995-ci ildə kənd təsərrüfatının ÜDM-də payı 25,3%, mədənçıxarma sənayesinin isə 10,2% təşkil etmişdir. Hal-hazırda mədənçıxarma sənayesində cəmi 0,8% işçi fəaliyyət göstərir. Amma, bu sahənin ÜDM-də payı 35,2% civarındadır.

Əmək bazarının son 20 illik dinamikasının təhlili bir sıra spesifik cəhətlərin üzə çıxarılmasına imkan vermişdir. (cədvəl 3.)

2000-2011-ci illər ərzində əhalinin sayı 13,8%, əmək ehtiyatları isə 30,2% artmışdır. Bu aspekt – ölkədə demoqrafik potensialın kifayət qədər güclü olduğunu göstərir. Bu artımda, eyni zamanda, təqaüd yaşının qaldırılması da müəyyən rol oynamışdır. Əmək qabiliyyətli əhalinin xüsusi çəkisi bu dövr ərzində 57,7%-dən 66,1%-ə qədər yüksəlmişdir.

İqtisadi fəal əhalinin isə payı (əmək ehtiyatlarında) 93,3-dən 75,8-ə qədər aşağı düşmüşdür. Paralel olaraq, muzdla işləyənlərin əmək ehtiyatlarında xüsusi çəkisi 26%-dən 22,7-yə qədər azalmışdır. Bu göstərici işsizliklə bağlı problemin mövcudluğundan xəbər verir. 2011-ci ildə məşğul əhalinin (4375,2min nəfər) 31,7%-i muzdla işləyən, 22,6%-i isə sərbəst şəkildə məşğul olanlardır. Müqayisə üçün deyək ki, "kiçik" inkişaf etmiş ölkələrdə, məsələn Avstriyada bu göstərici 1,5% təşkil edir. Bu nisbət bu gün də qalmaqdadır.

Müqayisə üçün deyək ki, 1991-1995-ci illərdə məşğulluq 3,2% aşağı düşmüş, 1995–2000-ci illərdə 2,5%, 2000–2005-ci illərdə 4,4%, 2005–2010-cu illərdə isə 1,8% yüksəlmişdir. Əmək qabiliyyətli yaşda olan əhalinin sayı həmin dövr ərzində (2002–2010) 14,8% artmışdır. 2003–2010-cu illər ərzində 70%-i daimi olan bir milyon yeni iş yerlərinin açılmasına baxmayaraq artım templəri arasındakı uyğunsuzluq davam etmişdir. Təhlil materialları göstərir ki, artımın səbəbi ölkədə fertillik göstəricisinin yüksək olmasındadır: 1960-64-cü illərdə fertillik göstəricisi 35,9 (1000 nəfərə düşən artım), 1976–1991-ci illərdə 26,3-ə bərabər olmuşdur.

*Cədvəl 1.*

***İqtisadiyyatın ayrı-ayrı sahələrinin məşğulluqda və ÜDM-də payı (%)***

| Göstəricilər | ÜDM-də payı % | | | | | Məşğulluqda payı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2009 | 2017 | 2019 | 2000 | 2005 | 2009 | 2017 | 2019 |
| -kənd təsərrüfatı, ovçuluq, balıqçılıq | 16,1 | 9,2 | 6,7 | 5,6 | 5,7 | 41,0 | 39,3 | 38,5 | 36,4 | 36,3 |
| -Mədənçıxarma sənayesi | 27,7 | 42,2 | 44,8 | 34,2 | 35,2 | 1,1 | 1,1 | 1,0 | 0,8 | 0,8 |
| -Emal sənayesi | 5,3 | 6,5 | 4,0 | 4,7 | 5,0 | 4,6 | 4,9 | 4,9 | 5,2 | 5,2 |
| -Elektrik enerjisi, qaz və su | 3,1 | 0,7 | 1,1 | 1,2 | 1,2 | 1,1 | 1,0 | 1,0 | 1,4 | 1,4 |
| Tikinti | 6,5 | 9,4 | 7,4 | 9,6 | 7,3 | 4,1 | 5,0 | 5,5 | 7,2 | 7,3 |
| -Ticarət, avtomobil və avadanlıqların təmiri | 6,3 | 6,1 | 7,0 | 10,4 | 10,0 | 16,9 | 16,6 | 16,2 | 14,6 | 14,5 |
| -Nəqliyyat, anbar təsərrüfatı, rabitə | 12,0 | 7,4 | 8,5 | 6,7 | 6,0 | 4,5 | 4,9 | 5,2 | 4,2 | 4,2 |
| -Dövlət idarəetməsi | 2,0 | 3,0 | 1,8 | 1,9 | 2,0 | 6,9 | 7,0 | 6,8 | 5,9 | 5,8 |
| -Təhsil | 4,9 | 2,5 | 3,6 | 3,9 | 4,1 | 8,6 | 8,7 | 8,5 | 7,8 | 7,8 |
| -Səhiyyə | 1,9 | 1,4 | 1,7 | 1,8 | 1,7 | 4,5 | 4,6 | 4,5 | 3,9 | 3,9 |
| -Digər sahələr | 8 | 4 | 5,6 | 12,9 | 14,9 | 6,6 | 6,7 | 7,8 | 3,2 | 3,1 |

*Mənbə: https://www.stat.gov.az/*

*Cədvəl 2.*

***Əmək bazarının inkişaf dinamikası (mln. nəfər)***

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2011 | 2017 | 2019 | 2019-cu il | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | 2000 nisbətən (%) | 2010-a nisbətən (%) |
| 1. Əhalinin sayı | 8114,3 | 8553,1 | 9111,1 | 9235,1 | 9810 | 9881,3 | +20,9% | +7,7% |
| 2. Əmək qabiliyyətli yaşda | 4917,1 | 5646,6 | 6285,6 | 6395,7 | 6771,6 | 6842,5 | +38,7% | +7,9% |
| 3. Əmək ehtiyatları | 4685,8 | 5421,3 | 6015,0 | 6101,2 | 6408,1 | 6556,0 | +38,3% | +8,3% |
| 4. İqtisadi fəal əhali | 4370,2 | 4380,1 | 4587,4 | 4626,1 | 5073,8 | 5190,1 | +15,9% | +13,3% |
| 5. Məşğulluq | 3855,5 | 4062,3 | 4329,1 | 4375,2 | 4822,1 | 4938,5 | +28,9% | +8,8% |
| 6. Muzdla işləyənlər | 1217,8 | 1297,1 | 1382,9 | 1387,5 | 1525,0 | 1645,4 | +33,3% | +14,3% |
| 7. İşsizlik (min. n.) | 394,6 | 317,8 | 258,3 | 250,9 | 251,7 | 251,6 | – 36,3% | –2,6% |

*Mənbə: https://www.stat.gov.az/*

Mühüm problemlərdən biri əmək ödənişlərinin ÜDM-də xüsusi çəkisinin xeyli aşağı olması ilə bağlıdır. Belə ki, bu göstərici üzrə Qərbi Avropa ölkələri Azərbaycanı orta hesabla 3dəfəyə yaxın qabaqlayırlar. Bu ölkələrdə, ələlxüsus Skandinaviyada əmək ödənişlərinin ÜDM-də xüsusi çəkisi 50-60% civarındadır. Azərbaycanda isə, inkişaf dinamikasının birinci onilliyində sözügedən göstərici 23,1%-dən (2000-ci il) 17,2%-ə qədər (2010-cu il) aşağı düşmüşdür. 2019-cu ildə isə (2010-cu illə müqayisədə) bu göstərici 19,3% civarında qərarlaşmışdır. Heç şübhəsiz ki, bu hal

iqtisadi artımın dayanıqlılığına, məşğulluq səviyyəsinə və gəlirlərin optimal bölgüsünə əks-istiqamətli təsir göstərir.

Bu aspektdən struktur fərqliliklər də çox geniş diapozonu əhatə edir. Məsələn, kənd təsərrüfatında sözügedən göstərici 2,8% (2010-cu il – xalis mənfəət 50,7%), iqtisadiyyatda həlledici yer tutan mədənçıxarma sənayesində, müvafiq olaraq,3% (88,2%), emal sənayesində isə 5,5% (25%) təşkil etmişdir. Qismən yüksək səviyyə maliyyədə 45,1% (15,8%), səhiyyədə – 34,7% (17,7%) və digər xidmət sferalarında müşahidə edilməkdədir.

*Cədvəl 3.*

*Əmək haqqının ÜDM-də xüsusi çəkisi (%)*

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2016-cı il: 2000-ə nisbətən (+,–) | 2016-cı il: 2015-ə nisbətən (+,–) | 2019 | 2019/2016-cı ilə nisbətən (%) |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1. İşçilərin əməkhaqqı (mln. man) | 1021,1 | 2820,5 | 6820,4 | 11037,3 | 11577,4 | +11,3dəfə | +4,8% | 15816,1 | +36,2% |
| 2. ÜDM (mln. man) | 4718,1 | 12522,5 | 42465,0 | 54380,0 | 60393,6 | +12,8dəfə | +11,0% | 81681,0 | +35,2% |
| 3. Əməkhaqqının ÜDM-də payı (%) | 21,6 | 22,5 | 17,2 | 20,3 | 19,2 | –2,4% | –1,1% | 19,3 | +0,1% |

*Mənbə: https://www.stat.gov.az/*

Göründüyü kimi, əməkhaqqının ÜDM-də xüsusi çəkisi bugünkü çağırışlar aspektindən adekvat deyildir. Son 15 ildə bu göstərici 2,4% aşağı düşmüşdür. ÜDM-in artmasına paralel olaraq, əmək haqqı səviyyəsində də dəyişikliklər getməlidir. Məsələn, 2005-ci ildə 2000-ci ilə nisbətən ÜDM – 2,6 dəfə, paralel olaraq əməkhaqqının mütləq məbləği 2,7 dəfə, ÜDM-də xüsusi çəkisi isə 0,9% artmışdır. Amma, bu asılılıq növbəti illərdə müşahidə edilmir. Məsələn, 2016-cı ildə 2015-ci ilə nisbətən ÜDM 11,0%, əməkhaqqının mütləq məbləği isə 4,8% artmış, lakin onun ÜDM-də xüsusi çəkisi 1,1% azalmışdır. Digər tərəfdən, inflyasiyanı nəzərə alsaq, onda əməkhaqqının mütləq məbləği (2019-cu ildə) cədvəldə verdiyi kimi deyil, 10141,9 mln. manat təşkil edəcəkdir ki, bu da 2015-ci illə müqayisədə 8,2% azalma demək olacaqdır.

Eyni zamanda, orta aylıq əməkhaqqı, minimum əməkhaqqı və yaşayış minimumları arasındakı nisbət də qəbul edilmiş beynəlxalq normalardan uzaqdır. (cəd. 6)

Hesab edirik ki, yaranmış situasiyanın real məzmunu son 15 illik dinamikada açıq-aydın formada yer almaqdadır.

Müqayisə üçün qeyd edək ki, beynəlxalq normalara görə minimum əməkhaqqı orta əməkhaqqının 40%-dən, orta əməkhaqqı isə yaşayış minimumunun 5 mislindən az olmamalıdır.

Sosial sferanın maliyyələşdirilməsində əsas ağırlıq dövlət büdcəsinin üzərinə düşür (cəd. 7). Son 20 illik dinamikadan göründüyü kimi, sosialyönümlü xərclərin həm ÜDM-də, həm də büdcə xərclərində xüsusi çəkisi aşağıya doğru istiqamətlənmişdir. Məsələn, bu göstərici 2019-cu ildə 2000-ci illə müqayisədə – 26,7%, 2010-cu ilə nisbətən isə 2,7% azalmışdır.

Düzgün təsəvvür yaranması üçün qeyd edək ki, dövlət büdcəsindən sosial yönümlü sferaya ayrılan xərclərin mütləq məbləği 2004–2012-ci illər ərzində 6,5dəfə artmışdır (orta illik artım – 460 mln. manat).

Nisbi kəmiyyət isə azalmağa meyilli olmuşdur. Belə ki, müqayisə edilən dövr ərzində sosialyönümlü xərclərin xüsusi çəkisi 17,8% azalmış və 2012-ci ildə 26,3%-ə bərabər olmuşdur. 2019-cu illə müqayisədə də eyni situasiya müşahidə edilməkdədir.

Digər tərəfdən, bir nəfərə düşən cəmi xərclərin məbləği dönmədən artmışdır.

*Cədvəl 4.*

***Orta, minimum əməkhaqları və yaşayış minimumu arasındakı bağlılıq***

| Göstəricilər | 2005 | 2010 | 2011 | 2019 | 2019 | |
|---|---|---|---|---|---|---|
| | | | | | 2005-ə nisbətən % | 2010-a nisbətən |
| 1.Orta aylıq əməkhaqqı (man.) | 123,6 | 331,5 | 364,2 | 634,8 | +5,1dəfə | +91,5% |
| 2.Minimum əməkhaqqı (man.) O cümlədən: | 30 | 85 | 93,5 | 200 | +6,6dəfə | +2,3dəfə |
| – orta aylıq əməkhaqqında xüsusi çəkisi (%) | 24,3% | 25,6% | 25,6% | 31,5% | +7,2% | +5,9% |
| 3.Yaşayış minimumu (man.) | 52 | 87,0 | 95,0 | 190 | +3,6dəfə | +2,2dəfə |
| – minimum əməkhaqqında xüsusi çəkisi (%) | 173,3% | 102,3% | 101,6% | 95,0% | x | x |
| – orta əməkhaqqında xüsusi çəkisi | 42,1% | 26,2% | 26,1% | 29,9% | –12,2% | +3,7% |

*Mənbə: https://www.stat.gov.az/*

*Cədvəl 5.*

***Sosialyönümlü xərclərin həcmi***

| Göstəricilər | 2000 | 2005 | 2008 | 2010 | 2019 | 2019 | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | 2000 nisbətən +, –% | 2010-a nisbətən % |
| – Dövlət büdcəsinin xərcləri (mln.m) | 764 | 2140,7 | 10774,2 | 122275 | 24425,6 | +31,9dəfə | +98,3% |
| – Sosialyönümlü xərclərin büdcədə payı (%) | 50,0 | 39,0 | 21,0 | 26,0 | 23,3 | –26,7% | –2,7% |
| – ÜDM-ə nisbəti (%) | 8,1 | 6,7 | 5,8 | 10,2 | 6,9 | –1,2% | –3,3% |
| – Əhalinin sayı (mln.m) | 8114,3 | 8553,0 | 8896,9 | 9100,0 | 9881,3 | +22,2% | +8,7% |
| – Bir nəfərə düşən xərclər (man.) | 47,07 | 98,59 | 259,9 | 356,9 | 575,9 | +12,2dəfə | +61,3% |

*Mənbə: https://www.stat.gov.az/*

Hesab edirik ki, maliyyələşmənin sosio-iqtisadi hədəfi düzgün tövsif olunmalıdır. Belə ki, sosial xərclərə – iqtisadi resurslardan ayrılan pay kimi yox, insan kapitalının formalaşması və inkişafına yönəldilən investisiya kimi baxmaq lazımdır.

Təhsil xərclərinin büdcədəki xüsusi çəkisi, tədqiq olunan dövr ərzində azalma təmayüllü olmuşdur. Belə ki, bu göstərici 2004-cü ildəki 19,6%-dən 2016-cı ildə 9,80%-ə 2019-cu ildə isə 8,9%-ə qədər azalmışdır.

İnkişaf etmiş ölkələrlə müqayisədə bu göstərici yetərli hesab edilə bilməz. Belə ki, təhsil xərclərinin payı (ÜDM-də) Danimarkada 8,3% və s. təşkil etmişdir. Avropa İttifaqında ən aşağı göstərici (3,5%) Rumıniyada (amma, artım təmayüllüdür) müşahidə edilmişdir. Eyni zamanda, MDB ölkələri arasında Azərbaycan təhsil müəssisələrinin sayına görə 5-ci, hər 10000 nəfərə düşən tələbələrin sayına görə isə 9-cu yeri tutur. Həmçinin, bir nəfər təhsil alana düşən xərclərin həcminə görə Azərbaycan çox geridə qalmaqdadır. Məsələn, Avropa Birliyi ölkələrində ibtidai təhsildə bu göstərici 4421 avro, orta təhsildə 5874 avro, ali təhsildə isə 8289 avro təşkil edir.

*Cədvəl 6.*

***Sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərində xüsusi çəkisinin dinamikası (%)***

| Göstəricilər | 2004 | 2008 | 2010 | 2011 | 2012 | 2016 | 2019 | 2019: 2004-ə nisbətən +,– | 2019: 2016-a nisbətən +,– |
|---|---|---|---|---|---|---|---|---|---|
| I. Dövlət büdcəsi xərcləri (%) cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | x | x |
| –sosiyalyönümlü xərclər. cəmi (%) o cümlədən | 44,1 | 22,0 | 25,4 | 24,1 | 26,3 | 32,6 | 23,3 | –20,8 | –9,3 |
| Təhsil xərcləri | 19,6 | 9,1 | 10,0 | 8,7 | 9,6 | 9,8 | 8,9 | –10,7 | –0,9 |
| Səhiyyə xərcləri | 4,9 | 3,2 | 3,6 | 3,4 | 3,6 | 3,9 | 3,6 | –1,3 | –0,3 |
| Sosial müdafiə xərcləri | 11,2 | 7,7 | 9,4 | 9,8 | 10,7 | 14,7 | 9,2 | –2,0 | –5,5 |
| Sosial təminat xərcləri | 4,5 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | –3,4 | x |
| – Mədəniyyət, idman, informasiya və s. xərcləri | 2,5 | 1,3 | 1,4 | 1,3 | 1,5 | 1,3 | 1,3 | –1,2 | x |
| Elm xərcləri | 1,3 | 0,6 | 0,8 | 0,7 | 0,7 | 0,6 | 0,5 | –0,8 | –0,1 |
| II. Sosialyönümlü xərclərdə sahələrin payı% | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | x | x |
| – Təhsil xərcləri | 44,4 | 41,3 | 39,4 | 36,0 | 36,4 | 30,3 | 38,6 | –5,8 | +8,3 |
| – Səhiyyə xərcləri | 11,1 | 14,6 | 14,3 | 14,3 | 13,8 | 12,1 | 15,4 | +4,3 | +3,3 |
| – Sosial müdafiə xərcləri | 25,5 | 34,8 | 37,0 | 40,7 | 40,7 | 45,1 | 39,4 | +13,9 | –5,7 |
| – Sosial təminat xərcləri | 10,2 | 0,9 | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,6 | –9,6 | +0,1 |
| – Mədəniyyət, idman, informasiya və s. xərcləri | 5,8 | 5,9 | 5,6 | 5,5 | 5,8 | 4,1 | 5,9 | +0,1 | +1,8 |
| Elm xərcləri | 3,0 | 2,6 | 3,1 | 3,0 | 2,8 | 1,9 | 2,1 | –0,9 | +0,2 |

*Mənbə: https://www.stat.gov.az/*

Səhiyyənin maliyyələşdirilməsinin təkmilləşdirilməsi məqsədi ilə 2008-ci ildə “Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası” qəbul edilmişdir. İcbari tibbi sığortanın tətbiqinə bu il (2020) başlamaq nəzərdə tutulmuş, lakin Covid-19 pandemiyası qərarın ertələnməsinə səbəb olmuşdur. 2000-ci ildən başlayaraq, səhiyyəyə ayrılan vəsaitlərin həcmi davamlı olaraq artsa da, bu vəsaitlərin ÜDM-də payı çox aşağı olmuşdur. Həm bu göstərici, həm də orta ömür müddəti, bir yaşa qədər ölən uşaqların sayı və ana ölümü göstəriciləri üzrə ölkə inkişaf etmiş ölkələrdən əhəmiyyətli dərəcədə geri qalır. Belə ki, 1994–2003-cü illərdə uşaq ölümünün səviyyəsi 3 dəfə (1993-cü ildə – 4989) aşağı düşmüş, 2010-cu ildə 1843 nəfər təşkil etmişdir. Müqayisə üçün deyək ki, inkişaf etmiş ölkələrdə bu göstərici hər 1000 nəfərə 6-10 civarında dəyişir. Bu göstərici 2008-ci ildə (Azərbaycanda) 76 uşaq, hal-hazırda isə 13 uşaq ölümü baş verir. Ana ölümü ilə bağlı göstəricilər də analoji şəkildə qərarlaşmışdır.

Təhlil materialları göstərir ki, ev təsərrüfatlarının son istehlak xərcləri yaşayış minimumunun 2005-ci ildə 102,0%-ni, 2010-cu ildə 174,9%-ni, 2011-ci ildə 185,5%-ni təşkil etmişdir. Hal-hazırda da bu yönümdə əsaslı yeniləşmə müşahidə olunmur. Aztəminatlı ailələrə verilən ünvanlı sosial yardımın əhatə dairəsi də əhəmiyyətli dərəcədə daralmışdır. Belə ki, 2019-cu ildə 2018-ci ilə nisbətən sosial yardım alan ailələrin sayı 52,2% (90,2 mindən 43,2 minə qədər) azalmışdır. Bir nəfərə düşən yardımın həcmi isə 34,3 manatdan 42,9 manata qədər artmışdır.

Digər bir fakt ondan ibarətdir ki, 2011-ci ildə adambaşına düşən gəlirləri 300 manatdan çox olanların əhalinin ümumi sayında payı 2,0% təşkil etmiş, 2018-ci ildə isə bu göstərici 4,8-ə çatmışdır.

Azərbaycan çox qısa bir zaman kəsiyində İPİİ görə 101-ci yerdən 67-ci yerə (2005–2010) yüksəlmişdir. Hal-hazırda isə 87-ci yerdədir.

## *Nəticə*

İlkin olaraq, diqqət yetirilməsi zəruri olan problemlər iqtisadi artımın “sosio-ekoloji” effektinə nail olmaq problemləridir. Ölkə əhalisinin təbii artım tempi orta illik 1,3% civarındadır. Demoqrafik situasiyanın təhlili də göstərir ki, bu temp yaxın gələcəkdə də davam edəcək və hətta, yüksəlmə ehtimalı da böyükdür. Yəni, artımın 1,3% civarında qərarlaşması, ən yaxşı halda sosial həyatın sadə təkrar istehsalı demək olacaqdır. Sosial problemlərin həlli, yoxsulluğun aradan qaldırılması və s. yönümündə effektiv fəaliyyət göstərilməsi üçün iqtisadi artım qeyd edilən səviyyədən ən azı 2–3dəfə çox olmalıdır.

Keçici deyil, dayanıqlı xarakter daşıyan makrososial sabitlik – əslində ideal variantdır. Belə ki, onun gerçək xarakter daşıması ölkədə insan kimi yaşayan insan cəmiyyətinin təşəkkülündən asılıdır...

Müasir yeniləşmə prosesinin mühüm dəyişmələrindən birisi də sosial və sosio-iqtisadi inkişaf prosesində vətəndaş cəmiyyətinin rolunun artmasıdır. Vətəndaş cəmiyyəti institutlarının dövriyyəyə girməsi sosio-iqtisadi sferada dövlət mərkəzçiliyi modelində tamamlayıcı rol oynamaqla, problemlərin həlli prosesinə bir sistemlilik keyfiyyəti əxz edir. Bu halda fərd → vətəndaş cəmiyyəti → dövlət üçlüyü ikiliyə çevrilir: fərd vətəndaş cəmiyyətinin subyektinə çevrilir.

Bu yolla da fərd → sosial institut dilemması (Smit-Dyukqeym dilemması) praqmatik çərçivədə öz aktuallığını itirir.

Postindustrial cəmiyyətlərdə sosial problemlərin klassik şəkildə aradan qaldırılmasına cəhd edilmir. İnkişaf etməkdə olan ölkələrdən, o cümlədən Azərbaycandan fərqli olaraq, sosial sferanın maliyyələşdirilməsi – eləcə maliyyələşdirmə üçün deyil, insan kapitalının formalaşması və inkişafı, son nəhayətdə isə sosial həyat keyfiyyətinin yüksəldilməsi məqsədini güdür. Başqa sözlə, sosio-iqtisadi inkişafın yüksək səviyyəsinə çatmış ölkələr – birmənalı olaraq dayanıqlı inkişaf problemlərinin həlli yönümündə çalışırlar.

Həyat keyfiyyəti – müxtəlif baxışların olmasına baxmayaraq, normal insani yaşayış standartlarını sistemli və kompleks şəkildə özündə ehtiva edən bir anlayışdır: İnsanın – insan kimi yaşayışının ölçü prosedurudur. Ona görə də, sosial problemlərin maliyyələşdirilməsi ilə (yalnız onunla) problemin real şəkildə həlli mümkün deyildir. Həyat keyfiyyəti – maddi, mənəvi, ideoloji, siyasi, psixoloji və s. aspektlərin insan yaşayışı üzərində proyeksiyasına istinad edir.

Yəni bu aspektdən normal yaşam standartı aşağıdakıların gerçək varlığına söykənir:

– Maddi təminatın yetərliliyi; – Normal iş və ev şəraiti; Azadlığın optimal şəkildə qərarlaşması; sosial ədalət və təhlükəsizliyin təminatı; sağlam ekoloji mühit; Asudə vaxtın yetərliliyi; şəxsiyyətin hərtərəfli inkişafı üçün zəruri şəraitin mövcudluğu; sosial bütövləşmənin gerçəkləşməsi; siyasi proseslərdə aktiv iştirak etmə imkanının yaradılması və s.

Təhlil materialları da göstərir ki, Azərbaycanda sosial inkişaf problematikasının həlli variantları klassik yanaşmaların çərçivəsində qalmaqda davam edir. Doğrudur, yuxarıda da göstərdiyimiz kimi, həyat keyfiyyəti tipli kumulyativ səciyyə daşıyan bir yanaşmanın tətbiqi cımiyyətin yüksək inkişaf səviyyəsində gerçəkləşə bilər. Bununla belə, transformasiya dövrünə qədəm qoymağı

planlaşdıran bir ölkə (Azərbaycan) həyat keyfiyyətinin ölçü metodikası və metodologiyasını hazırlamaq və sosial sferadakı statistik uçotu bunun üzərində qurmaq iqtidarındadır. Bu halda sözügedən sferada formalaşmış situasiya haqqında adekvat məlumata malik olmaq və fəaliyyətin əsas istiqamət və prioritetlərini daha dəqiq müəyyənləşdirmək imkanı yaranır. Və bu, eyni zamanda, sosisal sferanın inkişafı rakursundan həlledici əhəmiyyət kəsb edən zaman resurslarına qənaət imkanı verəcəkdir.

**ƏDƏBİYYAT**

1. https://www.stat.gov.az/
2. sosial.gov.az
3. its.gov.az

***Вугар Автандил оглы Байрамов***
***доктор философских наук, доцент,***
***Институт Экономики НАНА***

**Социальная проекция экономического развития: комплексный анализ**

***Резюме***

**Цель исследования -** В представленной статье анализируются основные составляющие системы социальной защиты и механизм воздействия этих составляющих на экономическое развитие.

**Методология исследования** – В работе использованы методы и приемы логического обобщения, математико-статистического, сравнительного анализа, системного подхода, анализа, синтеза.

**Практическая значимость исследования** – Приоритетными направлениями экономики Азербайджанской Республики являются улучшение социально-экономической составляющей. Работа, проделанная государством в этом направлении, - важность социально-экономического развития в экономической устойчивости.

**Результаты исследования** - Дана модельная идентификация социальной составляющей в социально-экономической сфере и структура основных составляющих системы социальной защиты в Азербайджане. При этом отражены анатомическое описание теоретико-концептуального построения и классификация моделей социальной политики в области устойчивости социально-экономического развития.

**Оригинальность исследования** - Доля различных секторов экономики в занятости и валовом внутреннем продукте (ВВП), динамика развития рынка труда, текущее состояние рынка труда в Азербайджане по уровню образования, доля заработной платы в ВВП, соотношение между средними , минимальная заработная плата и прожиточный минимум, объем социальных расходов и динамика доли в расходах государственного бюджета, распределение затрат на исследования и разработки по секторам, распределение затрат на исследования и разработки по секторам, количество людей, работающих в неблагоприятных условиях труда, динамика показателей, отражающих материальная обеспеченность населения, динамика показателей, отражающих материальную обеспеченность населения, назначение Отражается доля среднемесячной пенсии в среднемесячной рабочей силе и динамика показателей, связанных с пенсионерами, а также рассматривается влияние этих составляющих на экономическое развитие и устойчивость.

***Ключевые слова: система социальной защиты, прожиточный минимум, социальные расходы, материальное обеспечение, устойчивость.***

***Vugar Avtandil Bayramov***
***Doctor of Philosophy in Economics, Associate Professor,***
***Institute of Economics of ANAS***

**Social projection of economic development: comprehensive analysis**

***Summary***

**The purpose of the study of** the presented article is analyzing the main components of the social protection system and the mechanism of the impact of these components on economic development.

**Research methodology -** logical generalization, mathematical-statistical, comparative analysis, systematic approach, analysis, synthesis methods and techniques were used in the research work.

**Significance of the research -** The priority directions of the economy of the Republic of Azerbaijan are the improvement of the socio-economic component. The work done by the state in this direction is the importance of socio-economic development in economic sustainability.

**The results of the study -** A model identification of the social component in the socio-economic sphere and the structure of the main components of the social protection system in Azerbaijan are given. At the same time, the anatomical description of the theoretical and conceptual construction and classification of models of social policy in the field of sustainability of socio-economic development are reflected.

**The originality of the study -** The share of various sectors of the economy in employment and gross domestic product (GDP), dynamics of the development of the labor market, the current state of the labor market in Azerbaijan in terms of education, the share of wages in GDP, the ratio between the average, the minimum wage and the subsistence level, the volume of social expenditures, etc. dynamics of the share in state budget expenditures, the distribution of research and development costs by sector, the distribution of research and development costs by sector, the number of people working in unfavorable working conditions, the dynamics of indicators reflecting the material security of the population, the dynamics of indicators reflecting the material security of the population, Purpose It reflects the share of the average monthly pension in the average monthly labor force and the dynamics of indicators related to pensioners, and also examines the impact of these components on economic development and sustainability.

***Key words: social protection system, subsistence level, social expenditures, material security, sustainability.***